


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 190 (24.327)

*14 oktyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Birlik məkanında uğurlu, qarşılıqlı fəaliyyətə doğru

### *Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclası keçirilib*

Oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

İclasda iştirak edən dövlət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

Qırğızıstan Prezidenti **Sadır Japarov** dedi:

– Çıxış üçün söz Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verilir. İlham Heydər oğlu, buyurun, söz Sizindir.

**Prezident İlham Əliyev** iclasda çıxış edərək dedi:

– Hörmətli Sadır Nurqojoyeviç, hörmətli dövlət başçıları. Əvvəlcə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür etmək istərdim.

Şadam ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradılıb. Fürsətdən istifadə edərək Qırğızıstan rəhbərliyini ölkənin sosial-iqtisadi inkişafında uğurları münasibətilə təbrik etmək istərdim.




Rusiya Federasiyasının növbəti ildə MDB-də sədrliyinin həyata keçirilməsində hörmətli Vladimir Vladimiroviç Putinə uğurlar diləmək istərdim.

Tədbirimizin əlamətdar hadisəsi Özbəkistan Prezidenti, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin MDB-nin Fəxri Nişanı ilə təltif edilməsidir. Şavkat Miromonoviçi bu layiqli mükafata görə təbrik edirəm. Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə "Birliyin mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərardır.

Humanitar sahə bizim Birliyin çərçivəsində əsas istiqamətlərdən biridir. Azərbaycan bu sahədə əməkdaşlığımızın inkişafına böyük töhfə verir. Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim.

Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq.

Fürsətdən istifadə edərək, Belarus Prezidenti, hörmətli Aleksandr Qriqoryeviç Lukaşenkonu ikinci MDB Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim.

Hörmətli həmkarlar, iqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir. Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi, təxminən, 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur.

Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır. MDB-nin bir çox üzv ölkələri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edirlər. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək.

Bir daha tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, sammitin nəticələri gələcəkdə əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident Sadır Japarov:** – Sağ olun, İlham Heydər oğlu.

***

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Qırğızıstan Prezidenti Sadır Japarov iclasda aparılan müzakirələrin MDB-yə üzv ölkələr arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini vurğuladı. Sadır Japarov MDB-yə sədrliyin Qırğızıstandan Rusiyaya keçdiyini elan etdi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet hədəfləri barədə məlumat verdi. Vladimir Putin MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn ilin oktyabrında Moskvada keçiriləcəyini vurğuladı.

İclasda çıxış edən MDB-nin Baş katibi Sergey Lebedev imzalanacaq sənədlər barədə məlumat verdi.

Daha sonra sənədlər imzalandı.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.

* * *



Oktyabrın 13-də Bişkekdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

* * *

Oktyabrın 13-də Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri oktyabrın 13-də başa çatıb.

Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## Mərkəzi mətbuat orqanları əməkdaşlarına Naxçıvanda təlim keçilib




Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Mərkəzi Bankının təşəbbüsü ilə mərkəzi mətbuat orqanları əməkdaşlarının Naxçıvana səfəri başlayıb.

Qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsinin önünə gül dəstələri qoyub, Ümummilli Liderin xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Heydər Əliyev Muzeyinə baxış olub.

Səfər çərçivəsində mətbuat nümayəndələri Naxçıvan Biznes Mərkəzindəki sərgi ilə tanış olub, təlimdə iştirak ediblər.





Təlimdə qonaqlara regionda bankların fəaliyyəti, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin iş funksiyaları haqqında təqdimat keçirilib. Həmçinin sosial-iqtisadi inkişafın təmin edilməsi baxımından cari il ərzində həyata keçirilən tədbirlər, ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə və proqramda bank və sığorta xidmətlərinin inkişaf etdirilməsinə dair verilmiş tapşırıqlarla bağlı məlumatlar çatdırılıb.

Günün ikinci yarısında isə mətbuat orqanlarının əməkdaşları Naxçıvan Dövlət Universiteti və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

Bu gün isə mətbuat nümayəndələrinin Culfa və Ordubad rayonlarına tanışlıq məqsədilə səfərləri nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**




# Azərbaycanın yeni və parlaq inkişafının memarı

*Azərbaycan xalqının Ümummilli Lideri, qüdrətli dövlət xadimi Heydər Əliyev irsinin layiqli davamçısı, öz fəaliyyəti ilə tanınmış siyasi və dövlət xadimi, lider imicini qazanmış məşhur siyasətçi və diplomat kimi dünya ictimaiyyətinin hörmət və rəğbətini qazanmış böyük tarixi şəxsiyyət İlham Əliyev iyirmi ildir ki, respublikamıza uğurla rəhbərlik edir. Bu müddətdə onun həyata keçirdiyi məqsədyönlü siyasət və atdığı addımlar həm ölkəmizdə, həm də dünya ictimaiyyəti arasında yüksək qiymətləndirilir. Təsadüfi deyildir ki, dünyanın bir sıra dövlət və siyasət adamları, elm və mədəniyyət xadimləri, görkəmli şəxsiyyətlər cənab İlham Əliyevin fəaliyyətinə yüksək qiymət verirlər. Onu “Zəmanəmizin ən uğurlu liderlərindən biri” (Salome Zurabişvili), “Enerjili, təşəbbüskar, uzaqgörən, çox savadlı və müdrik insan” (Lütfizadə), “Əsl praqmatik diplomat və öz ölkəsinin böyük lideri, bu gün dünyada nələr baş verdiyini yaxşı anlayan üç dövlət başçılarından biri” (Ronald Lauder), “Ölkəsinin maraqları naminə müdrik və uzaqgörən siyasət həyata keçirən lider” (akad. Mixail Urqumov), “Müstəqil düşünən, olduqca savadlı, fiziki və mənəvi cəhətdən sağlam olan müstəqil və dünya miqyaslı dövlət xadimi” (Dmitri Kiselyov), “Regional və iqtisadi siyasət meydanında öz xalqına başçılıq edərək ölkəsini regionun ən sabit bölgəsinə çevirən rəhbər, nümunə olan bir lider” (Teresa Marqolis), “Bütün postsovet məkanında çox böyük siyasi xadim, çox güclü, eyni zamanda hər bir azərbaycanlının fəxr etdiyi mehriban insan” (Leonid Slutski), “Qətiyyətli və çevik lider” (Suma Çakrabarti), “Bütün Türk dünyasının rəğbətlə qəbul etdiyi güvənli lider, siyasət aləminin yeni məfkurəli dövlət xadimi” (Akkan Suver) kimi dəyərləndirir və yüksək qiymət verirlər. ABŞ Konqresinin nümayəndə heyəti cənab İlham Əliyevlə görüşərkən konqresmen Kurt Ueldon demişdir: “Həqiqətən, 5 dildə təmiz danışan və dünya siyasətində xüsusi çəkisi olan Sizin kimi liderlə ilk dəfədir ki, görüşürəm. Beləliklə, həqiqətən, böyük şərəf duyuram ki, dünya miqyaslı liderlə görüşürəm”.*

**Prezident İlham ƏLİYEV:** ***“Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam, ... hər bir azərbaycanlının Prezidenti olacağam”.***

Bu fikirlər bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya miqyaslı dövlət xadimidir. Bundan qürur duyur və çox böyük fərəh hissi keçiririk.

Ulu Öndər Heydər Əliyevdən sonra Ümummilli Liderin hakimiyyət irsini və siyasi kursunu ləyaqətlə davam etdirəcək yeganə şəxs Onun ən yaxın silahdaşı və ən istedadlı yetirməsi cənab İlham Əliyev ola bilərdi. Çünki cənab İlham Əliyev XX əsrin 90-cı illərinin ortalarından başlayaraq yeni tipli siyasi lider olaraq kifayət qədər böyük siyasi nüfuz qazanmışdı.

İlham Əliyevin yüksək nüfuz qazanması bir sıra amillərlə bağlı idi. O, ilk növbədə yeni tipli siyasi xadim kimi bir sıra uğurlara imza atmışdı. Ümummilli Liderin ən layiqli varisi cənab İlham Əliyev yaxşı təhsil almış, xarici dillərdə sərbəst danışmağı və müxtəlif, xüsusən beynəlxalq səviyyəli siyasi və dövlət xadimləri ilə təmasa girməyi dərindən mənimsəmişdi, dünyanın müasir düşüncə texnologiyalarına yiyələnmişdi. Bu baxımdan onu “rəqibləri” ilə müqayisə etmək çətin idi.

Cənab İlham Əliyevin 1994-2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra Birinci vitse-prezidenti kimi fəaliyyəti ölkəmizin iqtisadi dirçəlişində mühüm rol oynamışdır. Ulu Öndərin neft strategiyasının gerçəkləşməsində fəal iştirak edərək “Əsrin müqaviləsi”nin ərsəyə gətirilib həyata keçirilməsində müstəsna xidmətlər göstərmişdi. İlham Əliyevin iki dəfə (1995 və 2000-ci illərdə) Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilməsi onun siyasi fəaliyyət dairəsini daha da genişləndirmişdi. Xüsusilə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi Azərbaycanın mənafelərinin müdafiəsinə yönəlmiş fəaliyyəti nəinki xalqımız tərəfindən, eləcə də beynəlxalq təşkilat tərəfindən də yüksək qiymətləndirilirdi. Elə bunun nəticəsi idi ki, cənab İlham Əliyev Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü seçilmişdi.

Ölkəmizdə idmanın və Olimpiya hərəkatının sürətlə inkişafı məhz cənab İlham Əliyevin yüksək Milli Olimpiya Komitəsinin prezidenti kimi təşkilatçılıq və məqsədyönlü bacarığı sayəsində mümkün olmuşdu.

2003-cü il avqustun 4-də İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin olundu. Bu vəzifədə az müddət ərzində işləsə də, qəbul etdiyi qərarlarla, həyata keçirməyə başladığı işlərlə ölkəyə rəhbərlik etmək bacarığına və səriştəsinə malik olduğunu bir daha sübut etdi. Təsadüfi deyildir ki, həmin ilin prezident seçkilərində Ulu Öndər Heydər Əliyevin xalqa müraciətində seçkilərdə onun siyasi varisi olan İlham Əliyevi dəstəkləməyə çağırdı. 20 il əvvəl – 2003-cü il 15 oktyabr prezident seçkilərində uğur qazanaraq İlham Əliyevin prezidentlik fəaliyyətinə başlaması xalqımızın Heydər Əliyev ideyalarına verdiyi dəyərin, bu siyasətə dəstəyinin aydın ifadəsi idi.

Prezident İlham Əliyev prezidentlik fəaliyyətində həmişə xalqla bir olmuş, xalqın inam və etimadını qazanmışdır. Cənab İlham Əliyevin 2008-ci il prezident seçkilərindən də qalib çıxmasını şərtləndirən əsas amil onun daim xalqın yanında olması, xalqının isə onu alternativsiz etimad ünvanı kimi görməsi idi. 2008-ci il seçkilərində 88,73 faiz səslə Prezident seçilən cənab İlham Əliyev 2013-cü il seçkilərində 84,54 faiz, 2018-ci il seçkilərində isə 86,02 faiz səslə vətəndaşlarının yeganə inam mənbəyi olduğunu təsdiqlədi. Xalqımızın dəstəyini hər zaman yüksək dəyərləndirən Prezident cənab İlham Əliyevin söylədiyi fikirlər bunu bir daha təsdiq edir: ***“Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm...”***

**Cənab İlham Əliyev hakimiyyətdə olduğu dövrdə Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasını əsas götürərək bunları uğurla davam etdirmişdir. Bu səbəbdən də Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayır, ölkəmiz hərtərəfli səviyyədə inkişaf edir. Cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin siması əsaslı şəkildə dəyişmiş, xalqımızın maddi-rifah halı yaxşılaşmışdır.**

Dövlət başçısının 24 noyabr 2003-cü il tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında”kı Fərmanı ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə böyük təkan vermişdir. Ölkə rəhbəri cənab İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı” isə Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulmasına səbəb olmuşdur.

Artıq sayı dördə çatmış bu Dövlət proqramları çərçivəsində atılmış ardıcıl addımlar uzun illər regionların sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri aradan qaldırmış, yerlərdə infrastrukturun yeniləşdirilməsinə maddi zəmin yaratmışdır. Regional inkişaf proqramlarının əsas məqsədi isə bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Bu proqramların icrası sayəsində respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilmiş, yollar çəkilmiş, sosial obyektlər xalqın istifadəsinə verilmişdir.

**Prezident cənab İlham Əliyev Ulu Öndərin müəllifi olduğu yeni neft strategiyasını da uğurla davam etdirmişdir. Strateji neft və qaz kəmərlərinin inşasının başa çatdırılması ilə ölkə rəhbəri Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirmiş, regionun digər dövlətlərindən fərqli olaraq müstəqil xarici və iqtisadi siyasət yeritdiyini bütün dünyaya sübut etmişdir.**

Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi Bakı-Tbilisi-Qars yeni dəmir yolu xəttinin istifadəyə verilməsi artıq regionun lider dövləti olan Azərbaycanın xaricdən maddi və mənəvi dəstək almadan iri maliyyə tutumlu layihələrin reallaşdırılmasına qadir olduğunu göstərmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin istismara verilməsi isə gələcək layihələr üçün əsas olmuşdur. Dövlət başçısı Xəzərin neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin – “Əsrin müqaviləsi”nin hazırlanmasına və həyata keçirilməsinə sanballı töhfə vermişdir. 1994-cü ildə bağlanmış bu müqavilədən 23 il sonra – 2017-ci il sentyabrın 14-də Bakıda “Azəri-Çıraq-Günəşli” yatağının işlənməsinin davam etdirilməsi barədə yeni “Əsrin müqaviləsi” imzalanmışdır. Prezident cənab İlham Əliyevin sistemli, düşünülmüş və əsaslı fəaliyyətinin nəticəsi olaraq, müqavilənin fəaliyyət müddəti 2050-ci ilə qədər uzadılmışdır. Yeni müqavilədə Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılmış, ölkəmizə çatacaq mənfəət neftinin payı 75 faizə qaldırılmışdır. Azərbaycanın neft-qaz sahəsində əldə etdiyi uğurlar Avropanın enerji təhlükəsizliyi məsələsində də ciddi rol oynayır. Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə nail olmaqla Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir.

**Ölkə başçısının mütəmadi olaraq regionlara səfəri sürətli inkişafa səbəb olur, şəhər və rayonların sosial-iqtisadi inkişafı üçün əlavə maliyyə dəstəyi göstərilir. Nəticədə, regionların sosial-iqtisadi inkişafı sürətlə davam edir, xalqın rifahı naminə ardıcıl və sistemli tədbirlər görülür. Son 20 ildə ölkəmizdə 2 milyondan artıq iş yeri yaradılmış, işsizlik 40 faizdən 5 faizə, yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır.**

Ümumi daxili məhsulun həcmi, təqribən, 80 milyard manata çatmışdır. Dövlət büdcəsi 1,2 milyard manatdan 36 milyarda yüksəlmişdir. Orta əməkhaqqı isə 780 manat səviyyəsindədir. Ötən illərdə ölkə iqtisadiyyatına 275 milyard dollardan artıq investisiya qoyulmuş, Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 60 milyard dollar həddinə çatmışdır. 2022-ci ildə gerçəkləşdirilən əsaslı sosial siyasət sahəsində çox böyük dəyişikliklər baş vermişdir. Sosial islahat paketləri 4,2 milyon nəfəri əhatə etmiş, minimum əməkhaqqı 345 manata çatmış, pensiya və müavinətlər əhəmiyyətli dərəcədə artmışdır. Ölkəmizin dayanıqlı inkişafı, əhalinin normal və yaxşı yaşayışı üçün nə lazımdırsa edilir. Bunlar isə ölkə Prezidentinə respublika əhalisinin inam və sevgisini, hörmət və dəstəyini qazandırmışdır. ***“Azərbaycanda yoxsul adam olmamalıdır”*** prinsipi Prezident cənab İlham Əliyevin fəaliyyətində önəmli yer tutur və bu istiqamətdə əhəmiyyətli addımlar atılır.

Prezident cənab İlham Əliyev XXI əsrin başlanğıcından bütün sahələrdə daha da inkişafa nail olmuş və Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin edib.

**Bu gün Prezident seçilməsinin 20-ci ildönümü tamam olan cənab İlham Əliyevin rəhbərlik fəaliyyətini, ümumilikdə, dörd qrup üzrə təsnifatlaşdırmaq olar: 1. 2003-2008-ci illər. İlham Əliyev Azərbaycan miqyasında birləşdirici liderə çevrildi. 2. 2008-2013-cü illər. İlham Əliyev Cənubi Qafqazın alternativsiz, MDB-nin nüfuzlu lideri kimi qəbul olundu. 3. 2013-2018-ci illər. İlham Əliyev dünya siyasi elitasında Azərbaycan təmsilçisi olaraq qlobal məkanın vacib siyasi faktorlarından biri kimi çıxış edir. 4. 2018-ci ildən başlanan yeni mərhələ. İlham Əliyev dünya siyasətində müstəqil xarici siyasət yeridən yeni əsrin yeni lideridir.**

Dörd dövrün təhlilindən aydındır ki, 2003-cü ildən başlayaraq Azərbaycanın hərtərəfli sürətli inkişafı, uğurları və davamlı yüksəlişi məhz cənab Prezidentin adı ilə bağlıdır. O, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət yürüdür. 2004-cü ildə Prezident cənab İlham Əliyevin bəyan etdiyi strateji hədəflər, qarşıya qoyduğu vəzifələr reallığa çevrilmişdir. Təsadüfi deyil ki, Azərbaycan artıq 2009-cu ildə iqtisadi keçid dövrünü başa çatdırmış, hazırda dünyanın müasir və inkişaf etmiş ölkələri ilə müqayisə olunur. Son illərdə Azərbaycan iqtisadiyyatını şaxələndirməyə, ümumi daxili məhsulu 3,6 dəfə artırmağa və qeyri-neft sektorunu bir neçə dəfə yüksəltməyə nail olunmuşdur. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının, təxminən, 75-80 faizi Azərbaycanın payına düşür.

Azərbaycan 20 ilə yaxındır ki, Dünya Bankının bütün hesabatlarında islahatçı ölkə kimi mövqeyini möhkəmləndirib, inkişaf modeli dünyaya nümunə göstərilib. Bu, ilk növbədə, cənab İlham Əliyevin yenilikçi, təkmil islahatlara meyilli olmasından irəli gəlir. İslahatların mərkəzində isə Azərbaycan vətəndaşı, onun qayğıları dayanır. Həyatın bütün sahələrini əhatə edən, dünyada maraqla qarşılanan islahatların təşəbbüskarı ölkə Prezidentidir.

Azərbaycan artıq kosmik klubun azsaylı üzvlərindən biridir. Ölkəmizin üç telekommunikasiya peyki orbitə çıxarılmışdır. Bu günlərdə Bakı şəhərində 74-cü Beynəlxalq Astrofizika Konqresinin keçirilməsi 50 il bundan əvvəlki ənənənin yenidən davam etdirilməsinə əyani nümunədir. Ölkə başçısının konqresdəki dərinməzmunlu və əhatəli nitqi Prezidentin bu sahəyə nə qədər əhəmiyyət verdiyini bir daha göstərir. Qeyd edək ki, 20 il ərzində ölkəmizdə beynəlxalq səviyyəli, müxtəlif xarakterli tədbirlər hazırlanıb və ən yüksək səviyyədə həyata keçirilib. “Evrovision”, BMT-nin İnternet İdarəçilik Forumu, Davos İqtisadi Forumu, I Avropa Oyunları, Beynəlxalq Humanitar Forum, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı, Dünya dini liderlərinin beynəlxalq tədbiri və onlarla digər mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəmiz həm də sosial, iqtisadi, mədəni-humanitar və digər sahələrdə qlobal

*Ardı 3-cü səhifədə*

məsələlərin müzakirə edildiyi əlverişli məkana çevrilmişdir. Azərbaycanda kosmik sənayenin yaradılması inkişafımızın zirvəsi olmaqla uğurlarımızın, nailiyyətlərimizin miqyasını təcəssüm etdirir.

Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, inkişafımızın əsasında düşünülmüş siyasət, liberal islahatlar, dövlətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəklənməsi, güclü hakimiyyət və sabitlik amilləri dayanır. İqtisadçı alimlər müstəqil Azərbaycanın cənab İlham Əliyev mərhələsini hərtərəfli inkişaf dövrü kimi səciyyələndirirlər. Tarixçilər 2003-2023-cü illəri müstəqil Azərbaycanın inkişafının yeni tarixi epoxası hesab edirlər. Filosoflar bu dövrdən davamlı və dayanıqlı inkişaf illəri kimi söz açırlar. Ədəbiyyatçıların nəzərlərində isə bu dövr haqlı olaraq cənab İlham Əliyev erası adlandırılır.

Prezident cənab İlham Əliyev dünyanın ən nüfuzlu şəxsləri sırasındadır. Bunu dünyanın müxtəlif mərkəz və şirkətlərinin keçirdikləri ictimai rəy sorğusunun nəticələri təsdiq edir. "Rəy" Monitorinq Mərkəzinin 2011-ci ildə keçirdiyi sorğuda Azərbaycan əhalisinin mütləq əksəriyyəti Prezident cənab İlham Əliyevi dəstəklədiyini bildirmişdir. Böyük Britaniyanın "Populus Limited" şirkətinin yenə həmin ildə keçirdiyi rəy sorğusunda respondentlərin 95 faizi Azərbaycan Prezidenti cənab İlham Əliyevə etimad göstərdiklərini, 96 faizi isə onun siyasətini bəyəndiklərini vurğulamışdır. Qurumun rəhbəri qeyd etmişdir ki, indiyədək Qərb ölkələrində keçirilən rəy sorğularında dövlət başçısına bu dərəcədə etimad göstərilməsi faktı qeydə alınmamışdır. ABŞ-ın müstəqil qeyri-hökumət təşkilatı "Arthur J.Finkelsteyn and Associates" 2015-ci ildə aparılan sorğunun nəticələrinə görə, 96,8 faiz respondent Prezident cənab İlham Əliyevə etibar etdiyini bildirib.

Ölkəmizin dayanıqlı inkişafı, əhalinin normal və yaxşı yaşayışı üçün dövlət nə lazımdırsa edir. Bunlar isə ölkə Prezidentinə respublika əhalisinin, rəylərdə göstərildiyi kimi inam və sevgisini, hörmət və dəstəyini qazandırmışdır.

Respublikamızın 20 illik inkişafı təhlil ediləndə onun hərtərəfli inkişafı göz önünə gəlir. Dövlət başçısı cənab İlham Əliyevin başqa sahələrlə yanaşı, elm, təhsil və mədəniyyətimizin inkişafı istiqamətində həyata keçirdiyi siyasət Ulu Öndərin formalaşdırdığı ənənələrin uğurlu davamıdır. Bu sahələrdə qazanılmış nailiyyətlər möhkəmləndirilmiş, onların inkişafına diqqət və qayğı artırılmışdır. Təsadüfi deyildir ki, ölkə Prezidenti respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə əvəzlənməsini son dərəcə vacib sayaraq demişdir: ***"İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik, çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir".***

Prezident cənab İlham Əliyevin özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, nəyi nə vaxt və necə etmək bacarığı, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək qabiliyyəti ona imkan vermişdir ki, qarşıya qoyulan vəzifələrə nail olunsun. Bu keyfiyyətlər cənab İlham Əliyevi yeni əsrin yeni lideri səviyyəsinə yüksəltmişdir. O, postsovet məkanında tamamilə yeni tipli siyasi liderin nümunəsinə çevrilmişdir. İlham Əliyev dünya səviyyəli siyasi lider və inkişaf etmiş dövlətlərin liderləri ilə bir sırada dayanan görkəmli dövlət xadimidir. Prezident cənab İlham Əliyev dünya siyasi arenasında nüfuzlu lider, reallığı düzgün qiymətləndirən, praqmatikliyi və məqsədə doğru inamla irəliləyən siyasətçidir. O, praqmatik, peşəkar siyasətçi olaraq əməli addımları ilə hər bir fərdin maraq və mənfəətlərinin qorunmasına dövlət təminatının olduğunu praktik surətdə nümayiş etdirir. Cənab İlham Əliyev xalqın güvəndiyi şəxsiyyətdir. O, dövlətçilik, böyük siyasət və idarəetmə baxımından əsl liderə məxsus xüsusiyyətləri kompleks şəkildə özündə təcəssüm etdirir. Yüksək dövlətçilik istedadı, əsl liderlik qabiliyyəti, aydın siyasəti, zəngin idarəetmə təcrübəsi ona böyük nüfuz qazandırmışdır. Dövlət başçısı cənab İlham Əliyevin sözü və mövqeyi dünyada eşidilir və qəbul olunur. Bir sıra dövlətlərin xalqları da öz prezidentlərində bu keyfiyyətlərin olması arzularını dilə gətirirlər.

**Prezident cənab İlham Əliyevin səmərəli fəaliyyətindən danışarkən xarici siyasət kursunu ayrıca qeyd etməliyik. Çünki dövlət başçısı bu istiqamətdə çox böyük uğurlar əldə edib. Dövlət başçısı sürətlə dəyişən geosiyasi mühitdə ziddiyyətli və riskli dönəmdə xarici siyasəti səmərəli istiqamətdə inkişaf etdirir. Bunu həm Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan addımlar, həm də xarici siyasətin bütün prioritet istiqamətləri üzrə həyata keçirilən proqramlar sübut edir.**

Dövlət başçısı Qarabağ məsələsi ilə bağlı prinsipial mövqeni belə ifadə edib: ***"Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar".***

Prezident cənab İlham Əliyevin prinsipial və qəti mövqeyi Vətən müharibəsində və antiterror əməliyyatlarının həyata keçirilməsində bir daha özünü göstərdi. 2020-ci il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. İkinci Qarabağ müharibəsi nəticəsində işğal edilmiş torpaqlarımız qaytarıldı, ərazi bütövlüyümüzün bərpası təmin edildi, 2023-cü il 19-20 sentyabr antiterror əməliyyatı isə suverenliyimizin bərpası ilə nəticələndi. Vətən müharibəsində və ondan sonrakı müddətdə qazandığımız bütün zəfərlərin müəllifi, siyasi, diplomatik və hərbi müstəvilərdə atdığı məqsədyönlü addımları sayəsində bu qələbələri gerçəkləşdirən, xalqımıza qalibiyyət sevincini yaşadan şəxs – Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevdir!

Prezident cənab İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə yerinə yetirilir. Belə unikal və məqsədyönlü addımlardan birini Prezident cənab İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Mahir diplomat və dövlət xadimi olan cənab İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü olmasını əsas siyasi hədəf kimi müəyyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı həsabına reallaşa bilərdi və reallaşdı da.

2011-ci il oktyabrın 24-də BMT TŞ-yə keçirilən seçkilərdə Qoşulmama Hərəkatı üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nin qeyri-daimi üzvü seçildi. Respublikamız müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi böyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident cənab İlham Əliyev idi. Ölkə başçısının 3 il müddətinə sədrlik etdiyi Qoşulmama Hərəkatı dünyada baş verən haqsızlıqlara qarşı haqq səsini ucaltdı, hadisələrə obyektiv münasibət bildirdi. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurdu, Azərbaycan beynəlxalq təşkilatlarda söz sahibinə çevrildi, nüfuzu artdı. Azərbaycan dünya ölkələri sırasında 43-cü yerdə qərarlaşdı. Prezident cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etdi.

Prezident cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsini inkişaf etdirərək yeni, modern Azərbaycan dövləti qurdu. Dövlət başçısı cənab İlham Əliyevin bütün çıxışlarının mahiyyətində dayanan ***"Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik"*** tezisi dünənimizə və gələcəyə baxışdır.

*Ölkəmizin başçısı cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 20 il keçir. Bu günün zirvəsindən dönüb ötən dövrə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının canlı şahidi oluruq. Həmin dövrü Azərbaycanın yeni və parlaq inkişaf mərhələsi, Prezident cənab İlham Əliyevin isə onun memarı adlandırılması üçün bütün əsasların olduğunu indi hamı birmənalı şəkildə etiraf edir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Nəyi, nə zaman və necə etməyi bilən LİDER




*O, 20 ildir, xalqına yorulmadan xidmət edir. Amma bu xidmətin dəyəri 20 illik dövrə sığacaq həcmdə deyil!*

*Prezidentdir, amma təkcə mənsub olduğu ölkənin deyil, azərbaycanlı mənsubiyyəti daşıyan hər bir fərdin Prezidentidir!*

*Strateqdir, amma təkcə ölkəsinin gələcək strategiyasını planlayan yox, həm də bu ölkənin tarixi haqqını özünə qaytaran liderdir!*

*...Və o, Ali Baş Komandandır – XXI əsrdə bu hərbi vəzifənin qarşısına "MÜZƏFFƏR" sözünü böyük hərflərlə yazdıran Qalib Komandan!*

Heydər Əliyev irsinin layiqli davamçısı cənab İlham Əliyevin 20 illik siyasi fəaliyyətinin bütün istiqamətləri özünəməxsusluğu ilə seçilir. Lakin son 3 ildə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası yönündə əldə etdiyi möhtəşəm qalibiyyət Prezidentin 20 illik fəaliyyətinin əsl kuliminasiyasına çevrildi. Azərbaycan bu qalibiyyətlə 30 ilə yaxın işğalda saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bununla da ölkəmiz bütün dünyaya təkcə iqtisadi, mədəni potensialı ilə yox, həm də hərbi potensialı ilə nəyə qadir olduğunu göstərdi.

Keçmiş "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ" problemi sıradan bir problem deyildi. Çünki dünyanın bütün gücləri bu problemin həll olunmaması üçün hər şeyi edirdilər. Bunun üçün saysız-hesabsız vəsaitlər xərclənirdi. Artıq bütün dünya da reallığın bu cür davam edəcəyini düşünürdü. Az müddət sonra isə vəziyyəti leqallaşdıraraq məsələyə nöqtə qoyacaqlarını planlaşdırırdılar. Amma Azərbaycan Prezidenti beynəlxalq hüququ əsas götürərək problemin həllinə addım-addım yaxınlaşırdı. Davamlı olaraq beynəlxalq tribunalarda məsələnin sülh yolu ilə həll oluna biləcəyini deyirdi. Amma Azərbaycanın bu cür xoş niyyətinin qarşısında artıq beynəlxalq güclərin təmsilçiləri bu tezisi daha çox istifadə etməyə başlamışdılar ki, problemin hərb yolu ilə həlli yoxdur və Azərbaycan nəinki buna getməli, hətta bu haqda düşünməməlidir belə. Cənab İlham Əliyev isə bunun tam əksini sübut etdi və göstərdi ki, onu verdiyi qərardan heç kim döndərə bilməz!

44 günlük II Qarabağ müharibəsinə başlamaq və savaşdan qalib ayrılmaq hər ordunun görə biləcəyi iş deyildi. Çünki işğal altında saxlanılan ərazilər dünyada ən çox mina ilə çirkləndirilmiş ərazi idi (indi də belədir), illərdir, təmas xətləri boyunca ən güclü istehkam sədləri yaradılmışdı və üstəgəl strateji ərazilərin, demək olar ki, hamısı düşmənin əlində idi. Ən məşhur hərbi analitiklər də, bu müharibənin Azərbaycan Ordusu üçün ölümcül olacağını düşünürdü. Amma Ali Baş Komandan nə edəcəyini çox gözəl bilirdi. O, bu savaşda ənənəvi hərbi taktikaların çoxundan istifadə etməyəcəkdi. XXI əsrin döyüş texnologiyalarını elə strategiyalarla tətbiq edəcəkdi ki, dünyanın hərbi gücləri bundan, sözün əsl mənasında, dərs alacaqdı. Məhz yeni əsrin ən sürətli müharibəsi olan 44 günlük Qarabağ müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin mahir sərkərdəlik qabiliyyətini ortaya qoydu. Bu tarixi qələbə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən oktyabrın 12-də cənab İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümü ilə əlaqədar qəbul etdiyi bəyanatda da öz əksini tapdı: Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur edildi, tarixi ədalət və dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoydu, xalqımıza düşmən kəsilmiş dünya ermənilərinə sarsıdıcı zərbə endirdi. Bu strategiyanın davamı olaraq Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədilə 2023-cü il sentyabrın 19-20-də Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri bir daha xalqımızın milli ruhunun yenilməzliyini nümayiş etdirdi, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

II Qarabağ müharibəsini qələbə ilə başa çatdırmaq üçün həm də yüksək erudisiyaya malik siyasi strateq olmaq lazım idi! Müharibə dövründə döyüş meydanında, sonra isə azad olunmuş ərazilərdə gedən prosesləri obyektiv şəkildə dünya ictimaiyyətinə izah etmək də müharibə aparmaq qədər çətin və məsuliyyətli bir işdir. Son 3 ildə əldə etdiyimiz böyük nəticələri haqlı Qələbəmizin haqqı olduğunu sübut etməyin hansı çətinliklərlə başa gəldiyini biz gözəl bilirik! Amma Müzəffər Ali Baş Komandanımız bunun da öhdəsindən çox gözəl gəlir. İndi bir qalır müasir reallıqdan doğan bəzi şərtlərin yerinə yetirilməsinə nail olmaq. Qalib sərkərdə və strateq bunu da bacaracaq! Çünki o, nəyi nə vaxt və necə etməyi gözəl bilir!

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***



2023-cü il "Heydər Əliyev İli"dir

# Müasir Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin həyat amalının təntənəsidir

***Tarixi şəxsiyyətlərin böyüklüyü illər keçdikcə daha aydın görünür. Uca dağların zirvəsi uzaqdan əzəmətli göründüyü kimi, millətinin tarixində dərin iz qoymuş, onun keçmişini yaratmış və gələcəyini müəyyən etmiş insanların da işi və ideyaları zaman məsafəsindən daha uca görünür, daha aydın nəzərə çarpır. Bu ucalığa, bu zirvəyə boylandıqca insan sevinir, heyrətlənir və düşünür. Təbiidir ki, belə şəxsiyyətlərin taleyi həmişə çətin və keşməkeşli olur, çünki onlar özlərinin bütün mənalı ömürlərini fədakarcasına Vətəninin, millətinin tərəqqisinə, onun dövlətinin möhkəmləndirilməsinə həsr edirlər.***

Keçmişin və yaşadığı dövrün reallıqlarını nəzərə alaraq mümkün olanı, hətta ondan da artığını, yəni mümkün olmayanı da etmiş bu şəxsiyyətlərin gözəl işləri, xeyirxah əməlləri, müdrik ideyaları xalqın və dövlətin gələcəyinə işıq salır. Belə şəxsiyyətlərin varlığı, ilk növbədə, onları yetirən millətin xoşbəxtliyidir və Ulu Tanrının həmin xalqa verdiyi ilahi bəxşişdir. Bu baxımdan Azərbaycan tarixinin ən şanlı səhifələrini yazmış Ulu Öndər Heydər Əliyevin keçdiyi həyat yolu, bizə və gələcək nəsillərə miras qoyduğu mənəvi irsi misilsiz sərvət, əvəzsiz nümunədir. Təkcə Azərbaycan xalqının deyil, bütün Türk dünyasının fəxri olan bu böyük insanın gördüyü işlər, söylədiyi fikirlər haqqında hələ çox əsərlər yazılacaq, çox sözlər deyiləcəkdir. Çünki Ulu Öndərin hər bir insanın qəlbində öz yeri, öz obrazı, hər bir vətəndaşın taleyində öz izi vardır. Onun dolğun və bütöv şəxsiyyət obrazı hər bir azərbaycanlıya həmişə nümunə olmuş və gələcəkdə də mükəmməl örnək olacaqdır.

Dahi rəhbərin başladığı hər bir iş, atdığı hər bir addım Azərbaycan dövlətinin müstəqilliyinin əbədi və dönməz olmasına xidmət göstərmək olub. Bütün bunlar isə Azərbaycanın bir dövlət kimi mövcudluğunu, inkişaf strategiyasının əsas istiqamətlərini müəyyən etmişdir. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən müdrik insan deyirdi: ***"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*** Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illər ərzində respublikamızda böyük elmi, intellektual kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olmuş, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə Azərbaycan xalqı qazandığı müstəqilliyə və onun qorunub saxlanması sahəsində əldə etdiyi bütün nailiyyətlərə görə dahi oğluna minnətdardır. Ulu Öndər yenidən hakimiyyətə qayıdarkən demişdir: ***"Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir".***

Görkəmli dövlət xadimi Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından məharətlə çıxararaq qoruyub saxlamışdır. Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi illər ərzində xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətləri saymaqla qurtaran deyil. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir.

Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyət ürəklərdə özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları hələ uzun illərboyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideyalarını öz yolunda mayaka çevirəcəkdir.

Ümummilli Lider Heydər Əliyev dünyanın nadir insanlarından olmaqla hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik dahi Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Bu gün qürur duyuruq ki, təkcə Azərbaycanda deyil, bütün dünyada bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəslənilir.

Ümummilli Liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Ümummilli Lider Heydər Əliyevdən öyrənmişik. ***"Azərbaycan mənim ürəyimdir, nəfəsimdir",*** – deyən dahi şəxsiyyət millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Şükürlər olsun ki, Ulu Tanrı xalqımıza Heydər Əliyev kimi böyük şəxsiyyət qismət edib. Bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: ***"Xalq mənim dayağım, gücüm və inamımdır".*** Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş Ümummilli Liderimizin ideyaları daim yaşayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş Ulu Öndərin həyat və fəaliyyəti bizim üçün güc mənbəyidir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada xalqımızın böyük oğlunun izi olmasın. Bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz Heydər Əliyevin qüdrətli əlləri ilə hörülüb.

Müstəqil Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Görkəmli dövlət xadimi ölkəyə rəhbərlik etdiyi illərdə bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu, bu yolda bütün gücünü, iradəsini yalnız müdrik və qədirbilən xalqından aldığını söyləyirdi. Ən çətin vəziyyətlərdə bu inam və xalqına arxalanmaq dahi rəhbərə dözüm, iradə verib, bütün uğurlarını təmin edib. Elə "Xalq-Heydər, Heydər-Xalq" birliyi də belə yaranıb.

Sirr deyil ki, Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. 1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edir ki, Ulu Öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. Bu, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq tarixi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, sədaqətinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticə çıxaran Ümummilli Liderimiz kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi.

Görkəmli dövlət xadiminin fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsi, Azərbaycanı daimi müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Həmin illərdə Ulu Öndər Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, müstəqil Azərbaycanı bəxş etdi.

Öz əlləri ilə qurduğu Azərbaycanın sabahını da düşünən dahi siyasətçi ***"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*** söyləyərkən, ilk növbədə, xalqın, ölkənin gələcək taleyini, ölməz ideyalarının, məqsəd və arzularının həyata keçirilməsinin vacibliyini nəzərdə tutur və bu yolda İlham Əliyev şəxsiyyətinə inamını ifadə edirdi.

Sevindirici haldır ki, bu inam cənab İlham Əliyevin fəaliyyətində özünü doğrultdu və Azərbaycanın sosial-iqtisadi, mədəni inkişafında, beynəlxalq aləmdə qazanılan uğurlarda özünü göstərməklə Ulu Öndərin müdrikliyinin bir daha əyani ifadəsinə çevrildi. Heydər Əliyev siyasətinin zamanın sınaqlarından qaynaqlandığını, dərin zəka və ağıla söykəndiyini, xalqa və ölkənin tərəqqisinə, xoşbəxtliyinə yönəldiyini sübuta yetirdi.

Dahi şəxsiyyətin ömrü Azərbaycanın iyirminci əsr tarixinə müdriklik, vətənpərvərlik, insanlıq, Azərbaycançılıq kimi bəşəri dəyərləri bəxş etməklə bərabər, həm də yeni tariximizdə xalq-rəhbər birliyinin yenilməzliyini həqiqətə çevirdi. Xalqına, dininə, dilinə, tarixinə, adət-ənənəsinə sadiq olanların daim yaşayacağını sübut etdi, bəşəriyyət, azad dünya, xoşbəxt gələcək üçün qurub-yaradanların daim xatırlanacağını göstərdi. Ulu Öndərin ***"Mən mənalı həyatımın düz altmış ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub"*** sözləri bir ömrün hesabatıdır.

Heydər Əliyev öz əməli fəaliyyəti ilə Azərbaycan, insanlıq, bəşəriyyət üçün dəyərli bir tarix yaratdı. Bu, bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyi tarixidir. Ulu Öndər müstəqil Azərbaycanı daha xoşbəxt, insanları daha firavan görmək istəyirdi. Ümummilli Lider dəfələrlə xatırladırdı: ***"İnsan üçün, hər şeydən əvvəl, onun vətənidir, torpağıdır. Bir çox əsrlər bu Vətənin azadlığının, müstəqilliyinin arzusunda olmuşuq. İndi buna nail olmuşuq və bunu əziz tutmalıyıq".*** Bu sözlər Azərbaycanın dövlətçilik tarixinə yeni və unudulmaz bir səhifə yazan ölməz rəhbərin – Heydər Əliyevin nəsillərə müqəddəs tövsiyəsi kimi səslənir. Tarix zamanın sınaqlarında, dolaylarında yaranır. Zaman dəyişsə də, tarix əbədidir. Dünyada yeni bir tarix yaradan dahi insan Heydər Əliyev də əbədidir, ölməzdir.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: *"Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".*

Ulu Öndər Heydər Əliyevin dövlətimizin ərazi bütövlüyünün təmini ilə bağlı işğal altındakı torpaqlarımızın azad edilməsi arzusu Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti ilə 44 günlük Vətən müharibəsi nəticəsində reallığa çevrildiyi kimi, digər arzuları da çin olacaq. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz sahibinə çevrilməsi dünya miqyasında qəbuledilən reallıqdır. Dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvü olan Azərbaycanda əldə edilən bu uğurlar dövlətimizin apardığı düzgün siyasət və xalqımızın zəhməti, əzmi, iradəsi hesabına qazanılmışdır.

*Əldə etdiyimiz inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil dövlətdir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim xalqın maraqlarına xidmət göstərir və Azərbaycan öz inkişafında bu illərdə qazandığı uğur və nəticələrə dayanaraq daha möhtəşəm tarixini yazmağı, miqyaslı və nəhəng vəzifələrin həllini hədəf götürür. Həmin inkişafın başlıca yekunlarından biri də dövlət başçısı cənab İlham Əliyevin bu sözlərində bariz ifadəsini tapmışdır:* ***"Azərbaycan bu illər ərzində həm öz vətəndaşlarına, həm də dünyaya sübut etdi ki, biz müstəqil ölkə, azad xalq kimi yaşayırıq və yaşaya bilərik!"***

**Yazgül RZAYEVA**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## Gənclər Vətənə şərəf borcunu verməyə yollanır



*Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin Naxçıvan şəhər idarəsində növbəti çağırışçıların hərbi xidmətə yolasalma mərasimi olub.*

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçmiş soydaşlarımızın, qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə baş idarənin rəis müavini vəzifələrini müvəqqəti icra edən polkovnik-leytenant Sultan Zamanov açıb. Bildirib ki, "Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu il sentyabrın 16-da imzaladığı Sərəncama müvafiq olaraq müddətli həqiqi hərbi xidmətə çağırış davam edir.

Naxçıvan Şəhər Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin rəisi, polis kapitanı Abbasəli Həsənov, İkinci Qarabağ müharibəsi qazisi Arif Niftəliyev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov və çağırışçı valideynləri çıxış ediblər. Qeyd olunub ki, gənclər əsgər olmaq kimi şərəfli bir missiyanı yerinə yetirəcəkləri üçün qürur hissi ilə Azərbaycan Bayrağının altından keçərək hərbi xidmətə yola düşür.

Gənc əsgərlər adından Elmin İskəndərov çıxış edərək xidmətini layiqincə yerinə yetirəcəyini, nümunəvi əsgər olacağını və verilən tapşırıqları layiqincə icra edəcəyini diqqətə çatdırıb.

Sonda polkovnik-leytenant Anar Aqilov çağırışçılara bildirib ki, əsgəri xidmət keçmək hər bir gəncin şərəf borcudur. Məktəblisindən tutmuş ahıl yaşına çatmış hər kəs sizə xüsusi rəğbət bəsləyir.

Sonda çağırışçılar xidməti vəzifələrini yerinə yetirmək üçün hərbi xidmətə yola salınıb.

**✍ Fariz ƏHMƏDOV**

# Haqqın var, Məmməd Araz, haqqın var yaşamağa!

Ümummilli Lider Heydər ƏLİYEV: ***"…Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən ayrı təsəvvür etmək çətindir".***



"Xalq şairi Məmməd Araz",
Rəssam-Həbibə Allahverdiyeva

***Azərbaycanın şeiriyyət ümmanından vətən müqəddəsliyi, xalq məhəbbəti, həqiqətpərəstliyi ilə əbədiyyən coşub şağlayası bir Araz axır qəlbimizə, ruhumuza. Vətən sevgisi ilə yoğrulan bu haqq aşiqi çoxcəhətli və zəngin ədəbi irsi, sənətkarlıq qüdrəti ilə zamana meydan oxuyan, Vətən sevgisi, yurd təşnəliyi ilə bütün sədləri, sərhədləri aşaraq həmişəyaşarlıq qazanan böyük şairimiz Məmməd Arazdır. O hər sətri, hər misrası ilə vətən müqəddəsliyi, xalq sevgisi zərrəsi saçan sönməz Günəşdir, xalqa ilahi ərməğandır.***

Təsadüfi deyil ki, görkəmli şair Məmməd Araz müxtəlif vaxtlarda "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi", "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adlarına, Dövlət mükafatına layiq görülmüş, "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Şairin yaradıcılığına verilən yüksək qiymətin, həyat və yaradıcılığının öyrənilməsinə göstərilən qayğının davamı kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli ədəbiyyatın inkişafına mühüm töhfələr vermiş Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi ilə bağlı 2013-cü il 27 sentyabr tarixli Sərəncam imzalamışdır.

### *Məmməd Araz şeirləri yaddaşın özülüdür*

Bu gün qəlbimizin hər duyğusunda, hər vurğusunda sözü tarix, andı Vətən, hər fikrin, hər ürəyin təzadlar adasına səyyah olan Məmməd Araz yaşayır. Hər təbiət, hər fəsil dəyişdikcə duman gəldikcə, tufan getdikcə, Günəş batdıqca, ay çıxdıqca ədəbiyyatımızdan Məmməd Araz boylanır. Məmməd Araz həmişə elinin nəfəsi olub, elindən qopan hər zərrə sevgini yığaraq əsərləşdi. O, ömrüboyu nə şöhrət, nə şan axtardı, həyatın səsini həyatda duydu, həyatdan yazdı. Həqiqəti dilə gətirib: dünyanın mənliyini, sənliyini və heç kimliyini vurğulayıb gerçəkliyi öz misraları ilə əbədi susdurdu. O təkcə ədəbiyyat səhifələrinə yazılan şeir deyil, başdan-ayağa ədəbiyyatdır, ədəbiyyatın oxudur, məhvəridir, çevrəsidir. Təkcə tarixin səhifələrinə hopan iz deyil, yaddaşın özüdür, özülüdür:

*Görüm bir necədir yerlərə hopub,*
*Vətən torpağının şehinə dönmək.*
*Kiçik bir qayanın döşündən qopub,*
*Böyük bir dünyanın mehinə dönmək.*

Bütün vəznlərə sığan mənaların şairi Məmməd Araz təmənnasız insanların, sadə insanların şairi idi. Onun poeziyasında təkcə Vətən, təbiət, millət anlayışı yox, oxucu ürəyinin ən nazik qatına enib onları bədbinlikdən qoruyan müqəddəs bir nəsihət, hərarət artıran ümman vardı. O bir nağıl idi, bir dərəyə söykənən həyətin divarında. O bir ümman, nəhəng zülmət qalağıtək qaranlıqda seçilən zirvə idi.

Ötüb keçən zaman bir göz qırpımında bizdən uzaqlaşdıqca Məmməd Araz dünyasının dərinliyi və qəlb oxşarlığı daha aydın görünür. Onun şeirləri aydınlıqdan, nurdan yoğrulmuşdu və nur qədər yaşayacaqdı. Bir gün Məmməd gedəcək, amma ürəklərə axan Araz daim yaşayacaq, nur saçacaqdı. Məmməd Araz xalqın ruhunu itməyə qoymayan sənətkardır.

### *Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı*

Ey daşlaşan, torpaqlaşan, qayalara öz daşınla, öz duzunla dibək olan, Azərbaycan torpağında Araz boyda şırım olan, sinələri qayasına yamaq edən, haqq yolunu ayağına dolaq edən, bayrağını Xəzər boyda bayraq edən Şəhriyar haraylı, Bəxtiyar haraylı Məmməd Araz! Xətainin ayağına at yolladın, Səttarxana heykəl yondun, Xudafərin həsrətinə bir dağ çəkdin. Şəhidlərin qəbri üstə yanan səsini yanan anladı, duyan duydu, bilən bidi sənin Vətən daşının hər zərrəsində "vətəndaş" olduğunu:

*Mən bilmirəm, hardan boy al, hara dırman,*
*Mən bilmirəm, göyə ucal, yerə quylan,*
*Babaların məzarını qoru, qardaş!*
*Ataların vüqarını qoru, qardaş!*
*Körpələrin yuxusunu qoru, qardaş!*
*"Vətən ölməz" duyğusunu qoru, qardaş!*
*"Hünər ölməz" nidasını qoru,*
*Od yurdunun odasını qoru, qardaş!*

### *O Vətəndən yazmadı, Vətən oldu*

Ömrünün son çağlarında Murovdağın zirvəsinə qalxmaq Xəlil Rzaya qismət olmasa da, xəstəliyin, azar-bezarın acığına, elə lap əcəlin acığına Məmməd Araza nəsib oldu. "Qayalara yazılan səs" kitabını sinəsinə, ömür-gün yoldaşı Gülxanım xanımı qoluna keçirib sərt çovğunla, qar-boranla üz-üzə dayanan, Məmməd Araz sözünə, Məmməd Araz şeirinə ehtiyacı olan Vətən əsgərlərinin görüşünə getdi. O, Vətəndən yazmadı, Vətən oldu:

*Heç bir mükafatın yetmədi mənə,*
*Bircə "sağ olun" da bəsimdi, Vətən!*
*Bəsimdi hər səhər təltif yerinə*
*Qapımda küləyin əsibdi, Vətən!*

Bir vaxtlar şairin sinəsində həsrətə, qubara dönmüş Qarabağ yanğısı artıq onun ruhunu əsarətdən qurtarıb cəsarət rəmzinə çevirmişdir. El-oba qeyrətinin Vətənin dar günündə sınağa çəkildiyi bir zamanda "Yer üzünün Qarabağ düzü", "Qarabağ simfoniyası" adlı yazılarında bu gözəl diyarın taleyinə öz münasibətini bildirmişdi. Şuşanın füsunkar təbiətinin vurğunu olan şair yazırdı:

*Gecənin qoynunda yanır dağ şəhər,*
*Fəzadan asılı, çılçıraq şəhər.*
*Dağlar öz ovcunda yandırıb onu,*
*Ulduzlar qoynuna qaldırıb onu*
*Bu dağlar vüqarı, bu dağlar gücü.*
*Bu gecə kəşf etdim bir Şuşa bürcü,*
*Bir Şuşa bürcü, tamaşa bürcü...*

### *Qəlbi daim Naxçıvanla döyünən şair*

Xalq şairi ömrünün ən mənalı günlərinə ürəyinin bir parçası adlandırdığı, yayda Günəşi, qışda qarı çox olan, düşmənə aman verməyən sərt qayalar qoynunda Haçadağa, Nəhəcirə, ilmə-ilmə tarix yazmış Gəmiqayaya qucaq açmış Naxçıvandan baxaraq Məmməd Araz sənət zirvəsini "Dünya sənin, dünya mənim, dünya heç kimin" imzasıyla Nuh qayaların daş yaddaşına yazdırdı. Şairin yaradıcılığında daş obrazı daha rəngarəng olduğundan onun yaradıcılq dünyası bizə "Daş qayalar"ı xatırladır. Məmməd Araz yaradıcılığında Nursu kəndinin təbiətindən başlayan poetik təəssüratlar, kövrək notlar, həzin laylalar, sətiraltı misralarla Arazın tərənnümünün timsalında yüksək vətəndaşlıq ideyaları ilə tamamlanır. Şahbulaq yaylağı ətrafındakı yazı masasına bənzəyən sal daşlar Məmməd Arazın ilk şeir dəftərinin daşlaşmış səhifələrinə çevrilərək Məmməd Araz dünyasından baxır dünyaya:

*Mənim ürəyimin bir parçasıdır*
*Doğma Şahbuzum da, Naxçıvanım da.*

Ana torpağı Naxçıvanın ürək qanından ruh alıb yazdığı misralar ilə heykəlləşən, dillərdə sözləşən yaradıcı şəxsdir Məmməd Araz. Naxçıvanın ilhamlı suyundan içən şairin



şeirləri aşır, daşır, sərhəd tanımır, hüdud bilmir. Araz qədər təmkinli, Araz qədər coşqun, Araz qədər susqun şeirdir Məmməd Araz. Söz sənətimizdə ağır çəkisi olan ədib hər zaman el gücündən güc alaraq ədəbiyyatın ən uca dağlarını yıxaraq hər yerə səs saldı. Naxçıvanın ilhamlı təbiəti, sakit ruhu şairə yol açdı. Hərdən kəlmələrinin başını duman aldı, çən aldı, hərdən yağış aldı, qar aldı, fəqət sonda eşq adlı şeir yolu aldı. Eşq adlı şeir yolunda sevda yolçusu olan şair sevgiylə yaşadı, sevgiylə yaratdı. Ona görə indi məhz M.Arazı sevgi ilə dilə gətirir, dərin hisslər ilə anırıq.

### *Haqqın var, Məmməd Araz, haqqın var yaşamağa!*

Məmməd Araz ürəksiz başlardan, başsız ürəklərdən uzaq olub, ən gözəl əsərləri yaratdı, bizimlə yaşatdı. Məmməd Araz dağları, daşları, çəmənləri yığıb ədəbiyyatımızda Araz təbiəti yaratdı. Artıq biz o təbiətin axarından çıxa bilmirik, bu dünya, təbiət var olduqca şair təbiətin hər parçasında bizimlə yaşayıb, nəfəs alaraq, ruhumuzu dindirəcək:

*Çox tozanaq atlını təmkin atınla keçdin,*
*Sel boğan dərələri bir mərd qadınla keçdin.*
*Bütün keçilməzliyi, Vətən, adınla keçdim...*
*Haqqın var, Məmməd Araz,*
*Haqqın var yaşamağa!*

✍ **Fariz ƏHMƏDOV**

---

*14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

# Dayanıqlı iqtisadi inkişaf üçün müasir standartların tətbiqi vacib amillərdəndir

*Standartlaşdırma funksional istismar şəraitini və təhlükəsizlik tələblərini gözləmək şərtilə optimal nəticə əldə etmək üçün bütün maraqlı tərəflərin xeyrinə və onların iştirakı ilə müəyyən sahədə fəaliyyətin nizamlanması məqsədilə qaydaları müəyyən edilməsi və tətbiqidir. Standartlaşdırma elm, texnika və təcrübənin vəhdətinə əsaslanaraq sənayenin yalnız bu gününü deyil, eyni zamanda onun gələcək perspektivlərini müəyyən edir. Beləliklə, standartlaşdırma məhsulun optimal keyfiyyət göstəricilərini, məhsuldarlığın artırılmasını, maddi sərvətlərdən qənaətlə istifadə edilməsini texniki təhlükəsizlik qaydalarının gözləməklə təmin edir, qaydaları, normaları və tələbləri müəyyən edir.*

1970-ci ildən başlayaraq hər il oktyabrın 14-də bütün dünya elmi və texniki ictimaiyyəti standartlaşdırma işinin əhəmiyyətinə hörmət əlaməti olaraq Beynəlxalq Standartlaşdırma Gününü qeyd edir. Bu tədbir iqtisadi inkişafda, sənaye, ticarət, idarəetmə strukturları və istehlakçı hərəkatlarının və Beynəlxalq Standartlaşdırma Təşkilatına (ISO) üzv olan bütün ölkələrin maraqlarının təmin edilməsində standartların artan rolunun təsdiqini simvolizə edir. Beynəlxalq Standartlaşdırma Günü standartların gündəlik həyata, bazar iqtisadiyyatına və beynəlxalq münasibətlərin inkişafına gətirdiyi faydalar haqqında düşünmək üçün əla imkan yaradır. Məhz buna görə də hər il bu bayram müəyyən deviz altında keçirilir və ən böyük beynəlxalq standartlaşdırma təşkilatlarının – IEC (Beynəlxalq Elektrotexniki Komissiya), ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı), ITU (Beynəlxalq Telekommunikasiya İttifaqı) rəhbərlərinin imzaladığı mesajla müşayiət olunur.

Beynəlxalq Standartlaşdırma Gününün tarixi təsadüfən seçilməmişdir. Məhz həmin gün – 1946-cı il oktyabrın 14-də Londonda dünya ölkələri üzrə milli standartlaşdırma təşkilatlarının konfransında Beynəlxalq Standartlaşdırma Təşkilatı – ISO (International Organization for Standardization) yaradılıb. Hazırda ISO-da milli standartlaşdırma təşkilatları ilə 167 ölkə təmsil olunur.

Azərbaycan Respublikası ISO-da 7 iyul 2003-cü il tarixindən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi vasitəsilə tamhüquqlu üzv kimi təmsil olunur. Hazırda milli standartlaşdırma qurumu olan Azərbaycan Standartlaşdırma İnstitutu ölkəmizi ISO-da təmsil edir. Eyni zamanda yerli ekspertlərimiz ISO-nun 20 Texniki Komitəsində müşahidəçi və tamhüquqlu üzvü kimi iştirak edir. Azərbaycan Standartlaşdırma İnstitutu 2017-ci ilin dekabr ayından etibarən ISO-nun tamhüquqlu üzvüdür.

ISO-nun əsas funksiyası könüllü, konsensus əsaslı, bazaryönümlü beynəlxalq standartların işlənib hazırlanmasından ibarətdir. Etibarın təmin edilməsi beynəlxalq standartlaşdırmanın ən mühüm məqsədlərindən biridir. Beynəlxalq standartlar məhsul və xidmət keyfiyyətini, ətraf mühitə uyğunluğu, təhlükəsizliyi, etibarlılığı, qarşılıqlı fəaliyyət qabiliyyətini, səmərəliliyi və effektivliyi təmin edir. Beynəlxalq standartlar istehsalçıların istehsal etdikləri məhsulların beynəlxalq standartların tələblərinə cavab verdiyinə, rəqabətqabiliyyətli olduğuna, dünya bazarlarına çıxmaq imkanlarına malik olduğuna və hər yerdə istifadə edilə biləcəyinə inamını artırır.

Azərbaycanda standartlaşdırma sahəsi üzrə hüquqi baza Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və səyi ilə formalaşdırılıb. Belə ki, ilkin olaraq "Standartlaşdırma haqqında", "Ölçmələrin vəhdətinin təmin olunması haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Yeyinti məhsulları haqqında" qanunlar, həmçinin bu istiqamətdə qəbul edilmiş digər normativ-hüquqi sənədlər bu sahə üzrə qanunvericilik bazasının təməli hesab olunur.

Bu sahənin inkişafının vacibliyi nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiqinə dair qanunvericilik və institusional sahədə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Aparılan ardıcıl islahatların davamı olaraq "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Fərmanına əsasən hazırlanmış "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" qlobal trendləri, respublikada müvafiq sahədə mövcud vəziyyəti, hədəf göstəricilərini, məqsədləri, prioritet istiqamətləri, maliyyələşmə mənbələrini və tədbirlər planını özündə ehtiva edir.

Naxçıvan Muxtar Respublikasında əhalinin keyfiyyətli və təhlükəsiz məhsul və xidmətlərlə təmin olunması Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən daim prioritet istiqamət olaraq saxlanılıb. Bu baxımdan istehsal və xidmət sahələrində müasir standartların tətbiqi davamlı təşviq edilir və bu istiqamətdə zəruri tədbirlər həyata keçirilir.

Muxtar respublikada ixracyönümlü məhsul istehsal edən müəssisələrin nümayəndələrinin iştirakı ilə ISO beynəlxalq idarəetmə standartları üzrə vaxtaşırı maarifləndirici seminarlar keçirilərək müvafiq standartların əsas prinsip və tələbləri izah edilir. Cari ilin ötən dövrü ərzində 11 müəssisədə və 21 ailə təsərrüfatında istehsal edilən, ümumilikdə, 128 məhsulun etiket layihəsinin standartlara uyğun olaraq hazırlanmasına metodiki köməklik göstərilib və bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Keyfiyyətə nəzarət tədbirləri çərçivəsində 2023-cü ilin ilk doqquz ayı ərzində, ümumilikdə, məhsulların 685 halda, o cümlədən qida məhsullarının 684 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılıb və bu istiqamətdə nöqsan aşkar edilməyib.

İstehlakçıların gözləntilərinin qarşılanması, daxili və xarici bazarın tələblərinə uyğun, rəqabətqabiliyyətli məhsul istehsalı müasir standartların tətbiqini mütləq şəkildə şərtləndirməkdədir. Muxtar respublikada müasir standartların tətbiqinin təşviqi əsas fəaliyyət istiqaməti kimi bundan sonra da davam etdiriləcəkdir.

**Vasif ORUCOV**
*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin aparat rəhbəri*

# Böyük siyasi irsin qalib varisi

**Prezident İlham ƏLİYEV:** ***“Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.***

***Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.***







Kəngərli Rayon Mədəniyyət Sarayı







Füzuli Beynəlxalq Hava Limanı



Naxçıvan Qarnizonu Mərkəzi Hospital




Zəngilan Konqres Mərkəzi



Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb

## Elanlar

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Meşələrin İnkişafı İdarəsi (VÖEN:0200299041) ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi***
***Telefon: 545-11-64***

***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Balıq Mühafizə Stansiyası (VÖEN:0200312571) ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi***
***Telefon: 545-53-26***

***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Meşə Təsərrüfatı İdarəsi (VÖEN:0200232861) ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi***
***Telefon: 544-62-20***

***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Hidrometrologiya İdarəsi ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi***
***Telefon: 545-73-56***

***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Sədərək Rayon Su Monitorinq Laboratoriyası (VÖEN:0500129951) ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Sədərək rayonu, Heydərabad qəsəbəsi***
***Telefon: 070-821-37-53***

***

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 12 oktyabr 2023-cü il tarixli 274/ü nömrəli Əmri ilə Geoloji Axtarış və Kəşfiyyat İdarəsi ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Kreditorlar 2 (iki) ay müddətində tələblərini ləğvetmə komissiyasına təqdim edə bilərlər. Göstərilən müddətdən sonra tələblərə baxılmayacaqdır.

***Ünvan: Culfa şəhəri, Heydər Əliyev prospekti 12***
***Telefon: 546-05-22***

### İtmişdir

Şərur rayon Düdəngə kənd sakini Məmmədov Bahəddin Fərəc oğlunun adına olan JN-1235A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Rəsulova Əfruz İbrahim qızının adına verilmiş 99 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Aysel Yusifzadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 615